**«MilliKart» bazara yeni ideyalar təqdim edəcək**

«MilliKart» MMC-nin Əməliyyat şöbəsinin rəisi İlqar İbrahimov nağdsız ödənişlərin genişlənməsində kart bazarının rolundan danışaraq demişdir:

- Azərbaycanda nağdsız ödənişlər sisteminin inkişaf mərhələləri ölkə iqtisadiyyatının inkişafı ilə sıx şəkildə bağlıdır. Bu istiqamətdə ilk addımlar 2001-ci ildən başlayıb. Həmin dövrdə ölkəmizə neft müqavilələrindən qaynaqlanan ilk irimiqyaslı valyuta axını ölkənin maliyyə sistemində dirçəliş meyillərini gücləndirmişdi. 2001-ci ilin əvvəlində bütün bankların ödənişlərini həyata keçirən, Milli Ödəniş Sisteminin arxitekturasının ən mühüm komponentlərindən olan Real Vaxt Rejimində Banklararası Hesablaşmalar Sistemi (AZIPS) yaradılaraq istifadəyə verildi.

İnkişaf edən iqtisadiyyat ölkədə daha çevik və geniş istifadəçi kütləsinə yönəlmiş ödəniş sisteminin yaradılmasını zərurətə çevirir və bu da öz növbəsində keyfiyyətcə yeni nağdsız ödəmə vasitələrinin meydana çıxmasını şərtləndirir. 2005-2007-ci illəri əhatə edən Milli Ödəniş Sisteminin inkişafı üzrə Dövlət Proqramı çərçivəsində KÖMİS və «MilliKart» prosessinq mərkəzlərinin təsis edilməsi nağdsız ödənişlər sisteminin inkişafına yeni təkan vermişdir. Bu mərhələni ölkəmizdə nağdsız ödənişlərin inkişafının ikinci mərhələsi kimi də dəyərləndirmək mümkündür. 2005-ci ildən ölkənin milli hesablaşma sistemində müasir proqram təminatına, texniki avadanlığa və kadr potensialına söykənən yeni iştirakçının - «MilliKart» Prosessinq Mərkəzinin fəaliyyətə başlaması nağdsız ödənişlər sistemində, eləcə də ödəniş kartları bazarında rəqabət mühitini gücləndirmişdir. Bu da müsbət nəticələrini ən qısa zaman ərzində büruzə verməyə başlamışdır. «MilliKart» hazırda bazara ödəniş kartları, nağdsız ödəmələr istiqamətində ən müxtəlif texnoloji həllər təklif edir.

«MilliKart» Prosessinq Mərkəzində xidmət olunan kommersiya banklarının vətəndaşlara təklif etdikləri taksit (ödənişə möhlət verilməsi) və bonus özəllikli kredit kartları, Iinstant issuing» (ani kart emissiyası), «e-commerce» və s. layihələr reallaşdırdığımız çoxsaylı texniki həllərin yalnız ən sonuncularıdır. Məsələn, bazara çıxardığımız «Extra card» taksit kartı vətəndaşlara müxtəlif partnyor alqı-satqı və xidmət obyektlərində mal və xidmətlər alıb dəyərini aylar üzrə bərabər hissələrlə ödəmək, bonus qazanmaq və digər imkanlar verir.

Əgər 2011-ci ilin oktyabr ayında «MilliKart» şəbəkəsində fəaliyyət göstərən POS-terminal və internet satıcılarda 1 milyon 580 min 443 manat həcmində nağdsız dövriyyə olmuşdusa, cari ilin oktyabr ayında bu göstərici 4 milyon 600 min 958 manat təşkil etmişdir. Göründüyü kimi, nağdsız dövriyyə 3 dəfə artmışdır. Digər bir misal: ötən ilin ilk 10 ayı ərzində həmin meyar üzrə göstərici 11 milyon 436 min 651 manat olmuşdursa, cari ilin eyni dövründə bu göstərici 37 milyon 169 min 835 manat təşkil etmiş, 3,2 dəfə artım olmuşdur.

«MilliKart» yaxın aylarda bazara yeni ideya və həllər çıxarmağı planlaşdırır.